2017-ci ilin yanvar ayında muxtar respublikada nəqliyyat müəssisələri və avtomobil nəqliyyatı sahəsində fəaliyyət göstərən fiziki şəxslər tərəfindən 878 min ton yük, 6463 min nəfər sərnişin daşınmışdır. 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə yük daşınması 2 faiz, sərnişin daşınması 2,2 faiz artmışdır. Yük və sərnişin daşınmasından bütövlükdə 3498,8 min manat gəlir əldə edilmişdir ki, bu da 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 6,6 faiz çoxdur.

Qeyri-dövlət sektorunda 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə yük daşınması 1,9 faiz, sərnişin daşınması 1,4 faiz, yük və sərnişin daşınmasından əldə olunan gəlir isə 1,3 faiz artmışdır.